# Molla Nəsrəddin

SATİRİK JURNAL

ON CİLDDƏ

VII CİLD



Məmmədquluzadə Cəlil Hüseynqulu oğlu ( 1869–1932 ).
Yazıçı, dramaturq, jurnalist, ictimai xadim.
Böyük ədib "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri olmuşdur.



Azərbaycan Milli Elmlər Akademiyası
Nizami adına Ədəbiyyat İnstitutu

# Molla Nəsrəddin

satirik jurnal

ON CİLDDƏ (1906–1931)

## VII CİLD

(1925–1926)

Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2018

## RÖVZƏXAN

Bu tonə daşları kim bunca rövzəxanə yetər
Şərari-suzi-dilim hər şəb asimanə yetər
Tükətdi ömrümü saqi qəmi-zəmanə yetər
«Səbuh üçün mənə dürdi-meyi-şəbanə yetər
Əsər ki var, xərab olmağa bəhanə yetər».

Dirig eyləmədim hali-milləti idrak
Fəqir malına göz tikdim etmədim bir bak
Zəmanə döndü əcəb oldu rövzəxan qəmnak
«Cəfa oxun mənə yağdırmın ancaq ey əflak
Demən ki, yeddi kamandarə, bir nişanə yetər».

Dağılsa şiələrin zülm əlilə xanələri
Kim əski halına dönsün genə zəmanələri
Çıxıb da mənbərə mən başlayım təranələri
«Bəyanə yetməyə dərdi-dilim zəbanələri
Zəbanım ateşi-dildən çıxan zəbanə yetər».

Axunda vaizə gör şiənin vəfasını kim
Xərab eylədi yerlərdəki əsasını kim
Təbib yox edə bu dərdimin dəvasını kim
«Qopardı mərdümi-çeşmim könül binasını kim
Hübabi-eşqi — həva nəqdinə xəzanə yetər»

Marusa, sevdiyim ey dilbəri-mələkmənzər!
Tutubdu könlümü pudran misali — jəngi-kədər
Dodağını bu qədər gəl qızartma işte yetər
«Ləbin xəyalı ilə parə-parə oldu ciyər
Güvahi hal mənə əşki danə-danə yetər».

Üzün səhifəsi billah mənim kitabım olub
Həmişə canibi-eşqin rəhi-səvabım olub.
Zəmani-hicrdə həddən füzun əzabım olub
«Hərifi-bəzmi-qəməm xuni-dil şərabım olub
Təranəyi-tərəbim ani aşiqanə yetər»

Qazandığım pula eşqinlə qurmusan təmhid
Xəyali-çöhrəyi-alınla mərsiyəm təyid
Gecə yanımda butulka özüm bir evdə vəhid
«Füzuli istəmərəm məsnədi-Cəmü Cəmşid
Mənə nişiməni-dövlət şərabxanə yetər».

*SAQİT*